# İlham Əliyev Kəlbəcəri İsveçrə modeli ilə qurur



## Çox keçməyəcək, ermənilərin viran qoyduğu bu Azərbaycan şəhəri regionun əsas turizm mərkəzinə çevriləcək

**Uzun illər həsrətlə baxdığımız Kəlbəcər bu gün azadlığın səsini dağlarına, dərələrinə yayır. Səhərin şəfəqləri Kəlbəcərin uca zirvələrinə toxunduqca, burada həyatın yenidən doğulduğuna şahid oluruq. Bir vaxtlar susqun qalan yollar indi insanları və ümidləri birləşdirir. Hər daşında bir tarix, hər addımında bir gələcək olan bu torpaqda ucalan binalar, tikilən məktəblər, salınan yollar xalqın ruhunun, iradəsinin təntənəsidir.**

Azərbaycanın ən səfalı rayonlarından olan Kəlbəcər hər zaman strateji mövqeyi və nadir gözəlliyə malik təbiəti, zəngin flora və faunası ilə seçilib. Ətrafını sıldırım dağlar, gur axarlı çaylar, büllur kimi bulaqlar əhatə edən bu bölgənin ərazisi təbii sərvət xəzinəsidir. Kəlbəcərin 3619 kvadrat kilometrlik sahəsi dağ-meşə landşaftı ilə örtülüb. 1961 metrədək yüksəkliklərdə yerləşən rayon səfalı yaylaqları və dərələri ilə məşhurdur. Bölgənin flora və faunası Azərbaycanın nadir bioloji müxtəlifliyinin qorunduğu zonalardandır. Burada yüzlərlə dərman bitkisi, meşəliklərdə ayı, cüyür, dağ keçisi, müxtəlif quş növləri, nadir kəpənəklər və sürünənlər var. Bu füsunkar təbiət yalnız alimlərin və ekoloqların maraq dairəsində deyil. Eyni zamanda insanların ruhunu dincəldən, həyatına nəfəs, ürəyinə güc verən bir mənbədir. Burada insan təbiətin qoynunda rahatlıq tapır, sanki yenidən doğulur.

Bölgə həm də sular diyarı adlanır. Burada Azərbaycanın ən bol su ehtiyatlarına malik çay və bulaqları yerləşir. Levçay, Turağayçay, Tutquçay, Ağdabançay, Zəylik çayı, Qaraarxac çayı, Keşdək çayı, Zar çayı, Ayrım çayı və digər kiçik çaylar ölkənin energetika təminatı və su təsərrüfatında mühüm rol oynayır. İstisu kimi dünyaca məşhur mineral su mənbələri isə müalicəvi əhəmiyyətinə görə, artıq beynəlxalq səviyyəli kurort potensialına malikdir. SSRİ dövründə fəaliyyət göstərmiş "İstisu sanatoriyası" bu gün yenidən bərpa edilir. Şübhəsiz, bura gələcəkdə regionun əsas turizm mərkəzlərindən birinə çevriləcək.

Bütün bu təbii sərvətlər, zəngin torpaq və su ehtiyatları Kəlbəcərin ağır sənaye, "yaşıl energetika", ekoturizm və aqrar sahələrdə inkişafı üçün nadir imkanlar yaradır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev avqustun 21-də rayonun sakinləri ilə görüşündə Kəlbəcərin İsveçrə modelinə uyğun yüksəkkeyfiyyətli yaşayış məskəninə çevriləcəyini vurğulayıb: "Siz neçə il əziyyət içində yaşamısınız. Ona görə sizin üçün ən gözəl şərait yaradılmalıdır. Bu da İsveçrə layihəsidir. İsveçrədəki şəhərlərə tam uyğundur. Bəli, həm memarlıq, həm də daxildəki dizayn baxımından. Bilirsiniz, İsveçrə dünyada insanın həyat keyfiyyətinə görə birinci yerdədir. Ona görə biz Kəlbəcər üçün bunu seçmişik".

Təbii ki, dövlət başçısının bu sözləri sadəcə təsəlli deyil, düşünülmüş, məqsədyönlü və gələcəyə hesablanmış bir strategiyanın təcəssümüdür. Prezidentin "İsveçrə modeli" bənzətməsi heç də səbəbsiz deyil. Bu, dəqiq hədəfi ifadə edir və bir yol xəritəsidir. Üstəlik, Kəlbəcərdə qurulan yeni həyata, modern şəhərsalmaya, yüksək həyat keyfiyyətinə, rahat və təhlükəsiz yaşayışa yönəlmiş böyük dönüşün müjdəçisidir. Bu gün Kəlbəcərdə gedən quruculuq işlərinə nəzər saldıqda, həmin sözlərin reallığa çevrildiyinin canlı şahidi oluruq. Burada yollar salınır, binalar tikilir və gələcək nəsillər üçün keyfiyyətli həyatın təməli qoyulur. İsveçrənin dağlıq şəhərlərinə xas olan səliqə, estetika və funksionallıq artıq Azərbaycanın öz dağlarının qoynunda - Kəlbəcərdə canlanır. Qarlı zirvələr, saf bulaqlar, müalicəvi termal sular və zəngin biomüxtəliflik bölgəni yaşamaq və sağlam həyat tərzi üçün ideal məkana çevirir. Bu səbəbdən də Kəlbəcərin yeni dövrdə həm yaşayış məkanı, həm də turizm mərkəzi kimi formalaşdırılması prioritet elan olunub.

Hazırda bölgədə salınan yaşayış kompleksləri, sosial obyektlər, məktəblər, enerji və yol infrastrukturu İsveçrəyə məxsus keyfiyyət və estetikanı hədəfləyir. Murovdağ tuneli kimi mürəkkəb mühəndis qurğuları, ekoloji baxımdan dayanıqlı su-elektrik stansiyaları və "İstisu sanatoriyası" həmin yanaşmanın real nəticələridir. Bu baxımdan Prezident İlham Əliyevin Kəlbəcərə budəfəki səfəri bölgənin dirçəlişinə yeni nəfəs gətirdi. Səfər çərçivəsində bir-birindən önəmli layihələrə start verildi, bəziləri isə artıq xalqın istifadəsinə təqdim olundu. Prezident üçüncü və dördüncü yaşayış komplekslərinin, "Balland - Kəlbəcər balı və arıçılıq məhsulları" mağazasının açılışında iştirak etdi. Eyni zamanda Kəlbəcər şəhərində salınmış yeni mənzillərin açarlarını sakinlərə təqdim edərək, onların doğma torpaqlarına qayıdışına real töhfə verdi. Bu, həm də Böyük qayıdış prosesinin sadəcə plan deyil, reallığa çevrildiyinin bariz göstəricisi idi.

Səfər zamanı enerji və kənd təsərrüfatı sahələrində də əhəmiyyətli addımlar atıldı. "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su-elektrik stansiyaları istifadəyə verildi ki, bu da regionun "yaşıl enerji zonası"na çevrilməsi yolunda atılmış mühüm addımlardan biridir. Hazırda yollar, körpülər, digər infrastruktur, xüsusilə də Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu üzərindəki tunellərin və viadukların tikintisi davam etdirilir. Bu baxımdan deyə bilərik ki, Kəlbəcərdə görülən işlər modern Azərbaycanın yeni nəfəsi və yüksəkkeyfiyyətli, təhlükəsiz, firavan həyatı üçün qurulan gələcəkdir. Bütün bunlara Kəlbəcərin gələcək turizm iqtisadiyyatı üçün "brend bölgə"yə çevrilməsinin anonsu da demək olar. Çünki İsveçrə modeli yalnız şəhərsalma ilə məhdudlaşmır. Burada əsas məqsəd vətəndaşları yüksək həyat keyfiyyəti, təhlükəsizlik, təmiz mühit və sosial rifahla təmin etməkdir.

Bu gün Kəlbəcərdə dağlar yenidən nəfəs alır, yollar qalib xalqın ayaq səslərini eşidir, evlərə işıq, ocaqlara istilik qayıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistemli siyasət və məqsədyönlü proqramlar nəticəsində rayon yenidən inşa edilir - daha müasir, daha güclü və daha dayanıqlı şəkildə. İsveçrə modelinə uyğun qurulan yeni həyat tərzi bu bölgəni təkcə Azərbaycanın deyil, bütün regionun müasir dağ turizmi, sağlamlıq mərkəzi və "yaşıl enerji" zonası kimi təqdim edir. Burada aparılan hər iş bir məqsədə xidmət edir: insan üçün, vətəndaş üçün, gələcək üçün keyfiyyətli həyat yaratmaq. Bir sözlə, işğaldan azad olunmuş bu torpaq Vətənin yenidən yaşayan, nəfəs alan, inkişaf edən bir parçasına çevrilir. Və bu dönüş, bu dirçəliş sadəcə başlanğıcdır...

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 23 avqust (№177).- S.7.